# Qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2020-ci il tarixli 2366 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə əlaqədar "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi"nin, "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi"nin, "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Ötürücü şəbəkəyə qoşulma müqaviləsi"nin, "Torpaq icarə müqavilələrinin" və bu müqavilələrlə nəzərdə tutulmuş "Birbaşa razılaşma"ların və "Müstəqil mühəndis müqaviləsi"nin imzalanması ilə bağlı zəruri tədbirlər görsün;

1.2. Azərbaycan Respublikası Hökuməti adından imzalanmış müvafiq müqavilələri təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə bu Sərəncamın 1.1-ci bəndində göstərilən "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi"ndə və "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi"ndə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin;

1.4. aidiyyəti qurumlarla birlikdə layihənin həyata keçirildiyi ərazidə zəruri xarici və daxili infrastrukturun təkmilləşdirilməsi, külək-elektrik stansiyasının bu Sərəncamın 1.1-ci bəndində göstərilən "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi" və "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Ötürücü şəbəkəyə qoşulma müqaviləsi"nə uyğun olaraq, nəzərdə tutulan müddətdə və parametrlərlə ötürücü şəbəkəyə qoşulması, layihənin vaxtlı-vaxtında həyata keçirilməsini təmin etmək üçün tələb edilən digər inzibati və texniki məsələlərin icrası istiqamətində tədbirlər görülməsini təmin etsin;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncamın 1.1-ci bəndində göstərilən "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş Enerji alqı-satqı müqaviləsi"ndə nəzərdə tutulan daxili elektrik yarımstansiyası tikildikdən və quşların mühafizəsi sistemi quraşdırıldıqdan sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyətinin icarəsinə verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2024-cü il*

---

Azərbaycan.- 2024.- 21 fevral, № 39.- S.4.